# Qızıla bərabər gümüş

**Planetin ən möhtəşəm idman bayramı - XXXIII Yay Olimpiya Oyunlarının başa çatmasına üç gün qalıb. Hər gün milyonlarla tamaşaçıların nəbzi Fransada idmançılarımızla vurmaqdadır.**



Həyəcan, qalibiyyət və sevinc göz yaşları ilə dolu olan turnir taekvondoçumuz Qaşım Maqomedov üçün də əlamətdar olub. Belə ki, idmançımız ölkəmizin hesabına gümüş medal əlavə edib. Əslində, bunun əyarı qızıl da ola bilərdi. Lakin idmançımızın zədələnməsi, görüşə davam edə bilməməsi hədəfə çatmaqda problem yaradıb.

Ümumiyyətlə, Olimpiadalar tarixində ikinci dəfə Azərbaycan idmançısı bu növdə finala vəsiqə qazanıb. Buna nail olan ilk idmançı Radik İsayev olub. O, "Rio-2016"da +80 kq çəkidə qızıl medal qazanmışdı.

Qaşım taekvondo yığmamızın 4-cü medalını hesabına yazdırıb. Bu günədək Radikin qızılından başqa, idmançılarımız iki bürünc əldə ediblər. Milad Beiqi Harçeqani 80 kq, Patimat Abakarova 49 kq çəkidə fərqləniblər. Qaşıma qədər bütün medallar "Rio-2016"da əldə olunmuşdur.

Qeyd edək ki, 58 kq çəkidə yarışan Qaşım Maqomedov ilk döyüşünü 1/8 finalda keçirib. Cek Uolleylə (İrlandiya) qarşılaşan taekvondoçumuz rəqibini 2:0 hesabı ilə məğlub edib və mərhələ adlayıb. Maqomedov ikinci döyüşündə ispaniyalı Adrian Visente ilə üz-üzə gəlib. Taekvondoçumuz yenə də dayanqdan qalib ayrılıb. O, rəqibini 2:0 hesabı ilə məğlub edərək yarımfinalda iştirak hüququ qazanıb. O, finala gedən yolda Vito Dell Akvila (İtaliya) ilə gücünü yoxlayıb. Olimpiya çempionu ilə qarşılaşma Qaşım üçün uğurlu olub. Təmsilçimiz bu görüşdə də rəqibə gücünü göstərərək 2:0 hesabı ilə qalib gəlib və finala vəsiqə qazanıb. O, çempionluq uğrunda cənubi koreyalı Park Tae-Junla qarşılaşıb.Təəssüf ki, ilk raundda zədələnən Qaşım ikinci hissədə döyüşü davam etdirə bilməyib və Olimpiadanı gümüş medalla bitirib.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 8 avqust (№ 167).- S.1.